# Şirvanda Nəbi Xəzrinin 100 illiyi qeyd edilib

**Şirvan Şəhər Mədəniyyət Mərkəzində Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirərək onun inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustası, Azərbaycanın Xalq şairi, ictimai xadim Nəbi Xəzrinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**

Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı, şəhər icra hakimiyyətinin dəstəyi ilə keçirilən tədbirdə şairin ömür yolundan və yaradıcılığından bəhs edən videoçarx təqdim olunub. Qeyd edilib ki, təbiətə vurğunluq və doğma torpağa bağlılıq hissləri aşılayan Nəbi Xəzri poeziyası dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibətilə səciyyələnir. Nəbi Xəzrinin dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş və müəllifinə şöhrət qazandırmışdır. Nəbi Xəzri eyni zamanda ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan mədəniyyəti və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq işlər görmüşdür.

Tədbirdə şairin şeirləri səslənib, sözlərinə yazılan mahnılar ifa olunub, məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 4 mart (№48).- S.11.